

*KƏRƏM NƏBİYEV*

# *XOCALININ QANLI YUXUSU*

Bir nağıl yuxuda mürgü vururdum,
Gül- çiçək içində itib, uyurdum.
Qəflətən göylərdən yerə qan yağdı,
Diksindim,oyatdı insan fəryadı

Göydə ulduzlarda bir anda söndü,
Bu dünya qan dolu dənizə döndü.
Mərmilər, güllələr göydə uladı,
Aləmi bürüdü insan fəryadı.

Gecədə diksindi insan səsindən,
Uşağın, qocanın ah - naləsindən.
Olmadı heç kəsin kömək - imdadı,
Sabahı gec açdı insan fəryadı.

Söndü bir şəhərin çıraq sobası,
Ölkəmiz geyindi matəm libası.
Bacılar üz cırıb, qardaş ağladı,
Dünyanı titrətdi ana fəryadı.

Gərək tez alınsın bu heyif, qisas ,
Bununçün nə çoxdu vəsadət, əsas!
Xocalı qisası yaman uzandı,
Cavabsız qalmasın onun fəryadı!!!

Bu yara ağrıdır, deşir sinəmi,
Qana-qan ! deyirəm, eşidir məni!!!
Göyləri çulğadı ölüm harayı,
Qəlbimi yandırdı ana fəryadı!..

# *XOCALININ QİSASI*

Kəsilib bənd - bərələr,
Göydən tökülür zəhər.
Xəyanətdən xəbərsiz.
Yuxuya dalıb şəhər.

Yuxular əlvan rəng-rəng,
Çiçəklər ləçək-ləçək.
Hər kəs öz yuxusunda,
Toxuyur min bir çələng.

Bir uşaq yuxusunda,
Kəpənəyi qovurdu.
Gül - çiçəyin üstündən,
Asimana uçurdu.

Nuşanlı gözəl pəri,
Sayırdı cehizləri.
Pəncərəyə dikilib,
Nişanlının gözləri.

Bir ana ilə ata,
Dua edib həyata,
Toy tədarükü görür,
Sevincə bata - bata.

Xoş arzuyla bir qoca,
Ulu dağlardan uca,
Nəvəsini oynadır,
Dalınca qaça - qaça.

Hamilə bir gənc ana,
Layla deyir oğluna.
Daha bilməyirdi ki,
Boyanacaq al qana...

Gecənin bu çağında,
Arzular qucağında.
Gurladı toplar, tanklar,
Töküldü nahaq qanlar.

Kəpənək qovan uşaq,
Nişanlı gözəl pəri,
Toy tədarükü görən,
O atayla, o ana,
Nəvəsini oynadan

O dağdan uca qoca,
Bir oğul arzusuyla
O, hamilə gənc ana
Şirin yuxu içində,
Boyandılar al qana.

Kaş ki açılmayaydı,
O qanlı, müdhiş səhər!
Yer üzündən silindi,
Xocalı adlı şəhər.

Bəşəriyyət göz yumur,
Bu ağır xəyanətə.
Buna səbəb olanlar,
Alınsın cinayətə!

Kar olub qulağımız,
Kor olubdu gözümüz.
Bilin ki, almalıyıq,
Bu qisası özümüz!!!

Ədalət.- 2020.- 19 fevral. S. 4.